

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 69 (21.730)

13 aprel 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Babək rayonunda quruculuq işlərinin həcmi genişlənir

***Muxtar respublikanın iri yaşayış məntəqələrindən biri olan Babək rayonunda aparılan quruculuq işlərinin xəritəsi ilbəil genişlənir. Rayonun qəsəbə və kəndlərində müasir infrastruktur yaradılır, rahat yollar salınır, körpülər istifadəyə verilir. Ötən il bu tədbirlər davam etdirilərək rayonun Yarımca, Məzrə, Xəlilli, Hacıvar kimi kəndlərində kompleks quruculuq işləri görülüb, Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu və Nehrəmdə yeni kənd məscidi istifadəyə verilib.***



Bu işlər cari ildə də davam etdirilir. Belə ki, rayonun Payız kəndində mart ayından etibarən quruculuq işlərinə başlanılıb. Burada 252 şagird yerlik tam orta məktəb binası yenidən qurulur. Məlumat üçün deyək ki, yenidənqurma tədbirləri çərçivəsində binaya 1 mərtəbə də əlavə olunacaq. Təhsil ocağında 13 sinif otağı, 3 elektron lövhəli və kompüter sinifləri kollektivin ixtiyarına veriləcək. Bundan başqa, Payızda kənd və xidmət mərkəzləri də inşa olunur. Kənddaxili yolların abadlaşdırılması, kənddəki körpünün təmiri, həmçinin yaşayış məntəqəsindən keçən Cəhriçayda sahilbərkitmə işləri aparılması da kompleks quruculuq tədbirlərinə daxildir.

Daha bir quruculuq ünvanı isə rayonun ucqar dağ və sərhəd kəndi olan Gərməçataqdır. 2001-ci ildə istifadəyə verilən kənd məktəbinin binası hazırda yenidən qurulur. Binaya 2 fənn kabinəsi də artırılaraq sinif otaqlarının sayı 16-ya çatdırılacaq. Kənd və xidmət mərkəzlərinin inşa olunması sərhəd kəndinin sakinlərinə daha bir qayğının ifadəsidir. Bu yurd yerində yaradılan müasir infrastruktur məskunlaşmanın artmasına öz töhfəsini verəcək.

Rayonun ən böyük yaşayış məntəqəsi olan Nehrəm kəndində də quruculuq ab-havası hökm sürür. Son illər bu böyük kənddə 3 tam orta məktəb, kənd və xidmət mərkəzləri, müasir yol, uşaq musiqi məktəbi və böyük ədib Cəlil Məmmədquluzadənin Xatirə muzeyi istifadəyə verilib. Görülən işlərin davamı kimi kənddə yeni istirahət parkı salınır. Hazırda parkın salınacağı ərazidə təmizlik işləri görülür. Parkda kənd sakinlərinin istirahəti üçün hər cür şərait yaradılacaq. Məlumat üçün deyək ki, kənddə tarixin yadigarı olan "İmamzadə" türbəsində də yenidənqurma işləri aparılacaq, XVIII əsrə aid memarlıq abidəsinə ikinci həyat veriləcək.

Son illər muxtar respublikada müasir meliorasiya və su təsərrüfatı sistemləri yaradılıb. Bu işlər Babək rayonunda da geniş vüsət alıb, hektarlarla sahələr əkin dövriyyəsinə qatılıb. Hazırda isə rayonun Şıxmahmud və Xəlilli kəndlərinin torpaq sahələrinin suvarma suyu ilə təminatı yaxşılaşdırılır. Xatırladaq ki, ötən ildən Xəlilli kəndinə gələn və uzunluğu 1700 metr olan kanal əsaslı təmir olunub. Bu kanal Uzunoba Su Anbarından qidalanır. Kanal Şıxmahmud və Xəlilli kəndlərinin ərazilərini suvarma suyu ilə təmin edəcək. Artıq burada işlər yekunlaşmaq üzrədir. Ümumiyyətlə, rayonda əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi və suvarma mövsümünün mütəşəkkil şəkildə başa çatdırılması üçün su anbarlarının təmir-bərpası, sututarların suyun yığılması diqqət mərkəzində saxlanılıb.

**Muxtar RZAZADƏ**

## Naxçıvan-Ərzurum avtobus marşrutu fəaliyyətə başlamışdır

***Son illər muxtar respublikada yol-nəqliyyat kompleksinə daxil olan qurumların fəaliyyətinin təşkili sahəsində ardıcıl tədbirlər görülmüşdür. Müasir yolların çəkilməsi, yeni avtovağzalların tikilməsi və avtobusların alınması sərnişindaşımanın həcminin və keyfiyyətinin artmasına, beynəlxalq əməkdaşlığın genişlənməsinə səbəb olmuşdur.***

Bu tədbirlər 2017-ci ilin birinci rübündə də diqqətdə saxlanmış, Naxçıvan-Bakı-Naxçıvan, Naxçıvan-Urmiya və Naxçıvan-Təbriz istiqamətlərində avtobus marşrutlarının fəaliyyəti davam etdirilmiş, Naxçıvan-Ərzurum marşrutu fəaliyyətə başlamışdır.

Muxtar respublika daxilində sərnişindaşıma xidmətinin səviyyəsi daha da yüksəldilmiş, fəaliyyətdə olan 139 marşrut xəttində 305 avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmişdir. Taksi fəaliyyəti göstərən sürücülərin isə muzeylərə ekskursiyaları təşkil olunmuş, vətəndaşların 288 nömrəsinə zəng etməklə taksi xidmətindən istifadəsinə şərait yaradılmışdır.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## "Mendeleyev – 2017" Beynəlxalq Konfransda Azərbaycanı AMEA Naxçıvan Bölməsinin əməkdaşları təmsil edib

*Bu günlərdə Sankt-Peterburq Dövlət Universitetində keçirilən "Mendeleyev – 2017" Beynəlxalq Konfransda Azərbaycanı AMEA Naxçıvan Bölməsinin əməkdaşları təmsil ediblər.*

Rusiya Federasiyasının bir çox şəhərlərindən, o cümlədən Almaniyadan, İsveçrədən, Qazaxıstandan, Belarusdan nüfuzlu elm adamlarının qatıldığı konfransda bölmənin Təbii Ehtiyatlar İnstitutunun İqtisadiyyat şöbəsinin müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Sevinc Cabbarova, həmin institutun Mineral xammalın kimyası və texnologiyası laboratoriyasının böyük elmi işçisi, dosent Aliyə Rzayeva və Sorbsiya proseslləri laboratoriyasının elmi işçisi Mahnur Cəfərli iştirak ediblər.

Beynəlxalq tədbirdə həmyerlilərimizin "Naxçıvan Muxtar Respublikasında sənaye məhsullarının istehsalında yerli xammaldan istifadə", "Sürmə indium selenidin sintez şəraitinin öyrənilməsi", "Gallium (III), Bismut (III) və Sürmə (V)-nin azosafraninlərlə ekstraksiyalı atom-absorbsiyalı təyini" mövzularında çıxışları konfrans iştirakçıları tərəfindən rəğbətlə qarşılanıb, məruzələr ətrafında ciddi müzakirələr aparılıb.

Hər üç gənc tədqiqatçımızın çıxış etdikləri mövzuların elmi dəyəri nəzərə alınaraq "Mendeleyev – 2017" Beynəlxalq Konfransının sertifikatına layiq görülüb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

*Silahlı Qüvvələrimiz Azərbaycanın müstəqilliyinin, təhlükəsizliyinin qarantıdır. Bu gün ordumuzda döyüş ruhu yüksəlib, güclü maddi-texniki baza yaradılıb.*

## Gənclərin hərbi xidmətə yola salınması mərasimi olub



Bu fikirlər Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində keçirilən gənclərin hərbi xidmətə yola salınması mərasimində səsləndirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni oxunub, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Naxçıvan Şəhər Təşkilatının sədri Firudin Süleymanov və Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov çıxış edərək hərbi xidmətə yola salınan gənclərə uğurlar arzulayıblar. Bildirilib ki, gənclərimiz yaxşı xidmət etməli, xidmət dövründə hərbi texnikanın sirlərinə yiyələnməli və Ali Baş Komandanın əmri olarsa, istənilən anda düşmənə layiqli cavab verməyə hər zaman hazır olmalıdırlar.

Valideynlər adından çıxış edən gənc əsgər babası, Azərbaycan Vətən müharibəsi veteranı Vilayət Niftəliyev nəvəsini hərbi xidmətə yola saldığı üçün fəxr etdiyini bildirib, çağırışçı gənclərə uğurlar arzulayıb. O deyib ki, bugünkü qüdrətli ordumuz müstəqil dövlətimizin qurucusu, ümummilli liderimiz Heydər Əliyevin gərgin əməyinin bəhrəsidir. Bir il əvvəl, tarixə Azərbaycan Silahlı Qüvvələrinin aprel zəfəri kimi yazılmış, xalqımıza qalibiyyətin sevincini yaşadan, məhz böyük şəxsiyyətin gərgin səylərinin nəticəsində yaradılan, ötən illər ərzində gücləndirilən ordumuz bu gün daha da böyük zəfərlərə imza atmaq qüdrətindədir.

Çağırışçılar adından çıxış edən Bilal Əhmədov Vətənin keşiyində ayıq-sayıq dayanacaqlarına, komandir və rəislər tərəfindən verilən əmr və tapşırıqları vaxtında və layiqincə yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik Elxan Əliyev bildirib ki, "Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikasının Prezidenti 2017-ci il 10 mart tarixdə Sərəncam imzalayıb. O, bu gün ordumuza göstərilən dövlət qayğısından danışıb, hərbi xidmətə yola salınan bütün çağırışçıları təbrik edərək onlara gələcək xidmətlərində uğurlar arzulayıb. Xidmət rəisi deyib ki, ordumuzun ötən il qazandığı zəfərin ildönümünün qeyd edildiyi bir vaxtda hərbi xidmətə yola düşmək gənclərimiz üçün ikiqat bayramdır. Bu gün mobil və yüksək döyüş hazırlığına malik olan Silahlı Qüvvələrimiz regionun ən güclü ordusu hesab edilir. General, zabit və əsgərlərimiz aprel döyüşlərində bunu təkcə düşmənimiz olan işğalçı Ermənistan ordusuna deyil, bütün dünyaya nümayiş etdirdilər. Belə bir orduda xidmət etmək şərəfi sizə nəsib olduğu üçün məsuliyyətiniz ikiqat artır.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Həmin gün Babək rayonunda da gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib.

✍ **Səbuhi HÜSEYNOV**

## Dərman vasitələrinin dövriyyəsi, keyfiyyəti və təhlükəsizliyi daim diqqət mərkəzində saxlanılır

***Aprelin 12-də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində Dövlət Təhlükəsizlik Xidməti və Dövlət Gömrük Komitəsi ilə dərman vasitələrinin keyfiyyəti və təhlükəsizliyinə dair birgə maarifləndirici tədbir keçirilib.***

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əczaçılıq və dərman vasitələrinin reyestri sektorunun müdiri Hacı Əliyev "Dərman vasitələrinin dövriyyəsi, saxta dərman preparatlarının muxtar respublikaya gətirilməsinin qarşısının alınması", Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşı Beytulla Fərəcov "Dərman vasitələrinin dövriyyəsində yol verilən qanun pozuntuları", Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşı Anar Hacıyev "Psixotrop dərman vasitələrinin dövriyyəsi" mövzularında çıxış ediblər.

Tədbirdə əczaçılıq fəaliyyətinin "Dərman vasitələri haqqında", "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası qanunları və digər normativ-hüquqi aktlar əsasında tənzimləndiyi bildirilib. Qeyd olunub ki, muxtar respublikamızda əczaçılıq sektorunda dərman vasitələrinin idxalı ilə məşğul olan 3 müəssisə və pərakəndə satış üçün 56 əczaxana təşkilatı lisenziyalaşdırılıb.



Son illər dərman vasitələrinin dövriyyəsində saxta, mənşəyi məlum olmayan, normativ texniki sənədlərin tələblərinə cavab verməyən dərman vasitələrinə rast gəlinir. Saxta dərmanların istehsalı ilə məşğul olanların dərman paketlərinin surətini eynilə çıxara bilən yeni mexanizmlərdən istifadə etməsi insanların həyatının təhlükədə olması riskini bir qədər də artırır. Çünki surəti çıxarılan dərman paketləri orijinal paketlərlə eyni olduğundan, orijinal dərmanı saxtadan ayırmaq çox çətin və hətta bəzən mümkünsüz olur. Belə hallar xəstələrin həyatını təhlükə qarşısında qoyduğu üçün cinayət tərkiblidir. Qanunsuz dövriyyəsinə görə xüsusi icazə (lisenziya) olmadan dərman vasitələrinin idxal olunması, saxlanılması və dərman vasitələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada tənzimlənən qiymətlərdən fərqli qiymətə satışına görə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən, fiziki və hüquqi şəxslərə müvafiq cərimələr tətbiq olunur. 2016-cı ildə aparılan yoxlamalar nəticəsində muxtar respublika ərazisində fəaliyyət göstərən əczaxanalarda aşkarlanan nöqsanlara görə 12 əczaxanaya müvafiq cərimələr tətbiq olunub və 7 əczaxananın fəaliyyəti müvəqqəti olaraq dayandırılıb.

Tədbirdə vurğulanıb ki, dərman vasitələrinin keyfiyyəti və təhlükəsizliyi əhali üçün ən vacib və aktual məsələdir. Bu, nəzərə alınaraq dərman vasitələrinin muxtar respublika ərazisinə idxalı üçün xüsusi icazə (lisenziya) olmadan dərman vasitələri və tibbi ləvazimatlar gətirən fiziki və hüquqi sahibkarlar barəsində ciddi tədbirlər görüləcək, dərman vasitələrinin qanunsuz dövriyyəsi halları aşkarlandıqda Səhiyyə Nazirliyi tərəfindən onlara pərakəndə satış üçün verilən lisenziyaların fəaliyyəti dayandırılacaq və ya ləğv olunacaqdır.

Tədbirdə əczaçılıq sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər iştirak ediblər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Üzümçülük və şərabçılıq aqrar-sənaye sahələri arasında xüsusi yer tutmaqla, əlavə dəyər yaradılması və iqtisadi səmərəlilik baxımından ölkə, eləcə də muxtar respublika iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Üzüm digər kənd təsərrüfatı məhsulları arasında hər 100 hektar torpaq sahəsi üzrə yeni yaradılan iş yerlərinin sayına və ümumi məhsul buraxılışına görə ən yüksək göstəriciyə malik olan texniki bitkilərdən biridir. Bununla belə, üzümçülük kənd təsərrüfatı istehsalının ən çox kapital tələb edən sahəsidir.***

# Yeni üzüm bağlarının salınması məhsul bolluğunun yaradılması ilə yanaşı, əhalinin məşğulluğuna da müsbət təsir göstərir





***Keçmişə bir nəzər...***

Üzümçülüyün respublika iqtisadiyyatı üçün böyük əhəmiyyətə malik olduğunu yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev 1970-ci ildən başlayaraq bu sahənin inkişafına xüsusi diqqət və qayğı göstərirdi. Həmin dövrdə şərabçılıq sənayesinin inkişaf etdirilməsinə, istehsal olunan şərab məhsullarının keyfiyyətinin yüksəldilməsinə və çeşidinin genişləndirilməsinə dövlət tərəfindən böyük diqqət yetirilirdi. Lakin 1985-ci ildən başlayaraq keçmiş sovet rəhbərliyinin alkoqolizm və sərxoşluğa qarşı “mübarizə” adı altında həyata keçirdiyi “tədbirlər” muxtar respublikamızda da üzümçülüyün inkişafına ciddi zərbə vurmuşdu. Bunun nəticəsi idi ki, artıq ötən əsrin 90-cı illərinin əvvəllərində hektarlarla üzüm bağları quru çölü xatırladırdı. Qalan bağlar isə muxtar respublikaya mavi yanacaq axınının kəsilməsindən sonra məhv edildi, qiymətsiz süfrə üzümü kolları qırılaraq yanacaq kimi istifadə edildi. Muxtar respublika əhalisi üçün əsas qazanc mənbəyi olan üzümçülüyün bir sahə olaraq ləğv edilməsi əhalinin məşğulluğuna da böyük zərbə vurdu, bağlarda və şərab zavodlarında çalışanların hamısı işindən məhrum oldu. Çünki istehsalçılarla istehlakçılar arasında ənənəvi münasibətlər pozuldu və nəticədə, bir sıra şərab istehsalı müəssisələri fəaliyyətini dayandırdı.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra bu sahəyə diqqət yenidən artdı. Ulu öndərin məqsədyönlü siyasəti sayəsində ölkədə üzümçülük tədricən dirçəlməyə başladı. Naxçıvan Muxtar Respublikasının bir neçə bölgəsində yerli üzüm sortlarından ibarət yeni üzüm bağları salındı. Ümummilli lider Heydər Əliyev üzümçülük və şərabçılığı müstəqil Azərbaycan Respublikasında yeni bazar münasibətləri şəraitində inkişaf etdirmək üçün onun hüquqi bazasının yaradılması məqsədilə 2002-ci ildə “Üzümçülük və şərabçılıq haqqında” Qanunun tətbiq edilməsi barədə fərman imzaladı.

Ulu öndərimizin bu sahədə başlatdığı iş hazırda onun layiqli davamçısı, ölkə başçısı İlham Əliyev tərəfindən davam etdirilir. Ölkə başçısının müvafiq sərəncamı əsasında təsdiq olunan “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı” ölkəmizdə, eləcə də muxtar respublikamızda üzümçülük sahəsində dövlət siyasətinin və strategiyasının həyata keçirilməsində, müvafiq təşkilatların bu sahədəki işlərinin koordinasiyasının və sürətləndirilməsinin təmin edilməsində mühüm rol oynayır. Adıçəkilən dövlət proqramı muxtar respublikada da üzümçülüklə məşğul olan sahibkarların fəaliyyətini gücləndirir, yeni üzümçülük təsərrüfatlarının yaradılmasına əhəmiyyətli təsir göstərir.

***Üzümçülüyün şöhrəti özünə qaytarılır***

Göz işlədikcə uzanan üzüm bağlarını görmək, bu bağların yaratdığı əsrarəngiz mənzərələrdən həzz almaq, yəqin ki, bir çoxlarımızın arzusu olub. Bəzən televiziya kanallarında belə mənzərələrə tamaşa edəndə fikirləşmişəm ki, axı əvvəllər bizdə bundan da gözəl mənzərələr yaradan bağlar var idi, insanlar bu bağlarda alın təri tökərək halal zəhmətlə çörək qazanıblar. Ötən günlərdə Babək rayonunun Nehrəm kəndi ərazisində gördüyümüz bir mənzərə, sözün açığı, məni çox sevindirdi. Zərgər dəqiqliyi ilə salınan üzüm bağı böyük bir ərazini əhatə edir və torpaqdan yavaş-yavaş boy göstərən üzüm fidanları gələcəkdə bu bağın muxtar respublikanın ən gözəl bağlarından birinə çevriləcəyi əminliyini yaradır.

Bu təsərrüfatın sahibi Ənvər Əliyevlə söhbət zamanı bildirdi ki, Naxçıvan üzümün yetişdirilməsi və onun emalı ilə məşğul olan qədim diyardır. Tarixi qaynaqlara görə, hələ eramızdan əvvəl Naxçıvanın bir çox bölgələrində geniş üzüm bağları mövcud olub. Üzümdən şərab, doşab, abqora, mövüc, sirkə və sair məhsullar hazırlanırdı. Üzümçülüyün inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlər belə bir təsərrüfatın yaradılmasına imkan verib. Sahibkar deyir: “Ötən il təsərrüfatımız tərəfindən 100 hektar sahədə üzüm bağı salınıb. Bağların 150 hektara çatdırılması üçün hazırda əkin davam etdirilir. Biz yerli məhsuldar sortların əkininə üstünlük veririk. Ancaq bununla belə xarici ölkələrdən gətirilən üzüm sortlarına da maraq göstəririk. Hazırda üzüm bağına İtaliya mənşəli 20 min ədəd crimson, 15 min ədəd matilde, 30 min ədəd cardinal, 15 min ədəd michele palieri, 93 min ədəd red globe, 50 min ədəd viktoriya fidanı əkilib. Bu üzüm sortları həm görünüşünə görə, həm də məhsuldarlığı baxımından çox sərfəlidir. Üzümçülüyün inkişafında son illərdə Türkiyə də qabaqcıl sıralardadır. Bu gün Türkiyə ərazisindəki təsərrüfatlarda sultaniyyə sortundan geniş istifadə edilir. Hazırda bağımızda 50 min ədəd bu sorta məxsus fidan var”.

Ənvər Əliyevin sözlərinə görə, üzüm o qədər də susevən bitki deyil. Bu səbəbdən təsərrüfatda damcı üsulundan istifadə edilir. Bu üsulla suya əhəmiyyətli dərəcədə qənaət edilir: “Əminəm ki, bu bağlar ərsəyə gələndən sonra yaxşı qazanc əldə etmək mümkün olacaq və Nehrəm kəndinin əhalisinin məşğulluğuna öz töhfəmizi verə biləcəyik. Hazırda üzüm bağlarında onlarla gənc çalışır. Gələcəkdə onlar arasında üzümçülük sahəsində yaxşı mütəxəssislər yetişəcək və kim bilir, bəlkə də, gələcəkdə burada çalışanların da özlərinə məxsus üzümçülük təsərrüfatları olacaq”.

***Gələcək perspektivlər böyük uğurlar vəd edir***

Meyvəçiliyə də xüsusi diqqət yetirildiyini dilə gətirən müsahibim dedi ki, “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Babək rayonunda da bu sahənin inkişafına təkan verib. Bu proqramın yaratdığı imkanlardan yararlanaraq 20 hektar sahədə alma bağı salmışıq. Bu bağa məhsuldarlığı və dadı-tamı ilə seçilən Türkiyə, həm də yerli sortlardan olan alma tingləri əkilib. Bağların bar verməsindən sonra muxtar respublika əhalisinin tələbatının böyük bir hissəsinin ödəniləcəyinə ümid edirik.

Onu da qeyd edək ki, rayonda bağların suvarma suyu ilə təmin olunması üçün də lazımi tədbirlər görülüb. Belə ki, çay ətrafında 2 artezian quyusu vurulub. Oradan 6 kilometr məsafədə üzümçülük təsərrüfatına yeraltı su xətti çəkilib və su anbarı tikilib. Həmin su xəttindən su anbara yığılır və sahələr suvarılır. Yaxşı haldır ki, bağların suvarılması damcı üsulu ilə həyata keçirilir. Təsərrüfatın kifayət qədər texnika və texnoloji avadanlıqları da vardır. Bu da imkan verir ki, istər üzüm bağları, istərsə də meyvə bağları keyfiyyətlə becərilsin.

*Bəli, muxtar respublikada yeni üzüm plantasiyalarının salınması bir daha onu deməyə əsas verir ki, əhalinin süfrə üzümünə və quru üzümə, şərabçılıq və digər üzüm emalı məhsullarına, üzüm emalı və şərabçılıq sənayesinin isə xammala olan tələbatının daxili istehsal hesabına ödənilməsi, yeni iş yerlərinin yaradılmasına, kənd əhalisinin gəlirlərinin artmasına şərait yaradacaqdır. Bundan başqa, dövlət büdcəsinə və yerli büdcəyə daxilolmalar artırılacaq, kənd yerlərində sosial şərait yaxşılaşdırılacaq, üzümçülük və şərabçılıqla bağlı digər sahələrin inkişafı təmin ediləcəkdir.*

**✍ Səbuhi HÜSEYNOV**

## Daha bir qapalı suvarma şəbəkəsi qurulacaq

Muxtar respublikada irriqasiya sistemləri daim yeniləşdirilir, qapalı suvarma şəbəkələri qurulur, meliorasiya tədbirləri həyata keçirilir.Bu tədbirlərin davamı kimi ötən il Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərini əhatə edən qapalı suvarma şəbəkəsi istifadəyə verilib. 117 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma şəbəkəsi ərazidə şoranlaşmanın qarşısının alınmasına imkan verəcək. Su mənbəyi kimi Araz çayından qidalanan nasos stansiyası götürülüb. Ərazidə 2,2 kilometr uzunluğunda ana xətt, 9 min 930 metr uzunluğunda isə paylayıcı su xətləri çəkilib. Su xətlərinin üzərində 25 siyirtmə, 103 hidrant və 20 suboşaldıcı qoyulub.

Bu il isə həmin rayonda 400 hektar ərazini əhatə edən daha bir qapalı suvarma şəbəkəsi qurulacaq. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin şöbə müdiri Səttar Nəsirovdan aldığımız məlumata görə, yeraltı suvarma şəbəkəsinin qurulmasının nəticəsidir ki, Böyükdüz və Xok kəndlərində əkin sahələri xeyli genişləndirilib. Əgər əvvəllər Böyükdüz kəndində 700-800 hektar taxıl əkilirdisə, ötən ilin payızında həmin rəqəm 1200 hektara çatdırılıb.

Böyükdüz kənd sakini Vaqif Babayev deyir ki, əvvəllər bu ərazilər əkilmirdi. Lakin yeraltı suvarma şəbəkəsinin qurulması bu torpaqlara yeni həyat verib: “Bir qarış torpağımız belə, boş deyil. Biz torpaq mülkiyyətçiləri yaradılan şəraitdən səmərəli istifadə etməklə əkin sahələrini getdikcə genişləndiririk”.

Ötən il Babək rayonunda yeni nasos stansiyasının tikintisi, yeni suvarma sisteminin qurulması nəticəsində Kültəpə və Kərimbəyli kəndlərinin 565 hektar torpaq sahəsində suvarma imkanları yaxşılaşdırılıb ki, bunun da 217 hektarı yeni əkin dövriyyəsinə qatılmış torpaqlardır.

Kültəpə kənd sakini Tapdıq Abbasovun sözlərinə görə, əvvəllər torpaqların suvarılmasında xeyli çətinliklər çəkiblər. Lakin burada yeni suvarma xəttinin çəkilməsi, su kanalının istifadəyə verilməsi torpaqları cana gətirib. Artıq torpaqlardan bol məhsul götürmək üçün hərtərəfli şərait yaradılıb.

Qeyd edək ki, ötən il Şərur rayonunun Xanlıqlar, Vərməziyar və Ələkli kəndlərində 589 hektar sahənin su təminatını yaxşılaşdırmağa imkan verən suvarma boru xəttinin tikilməsi də torpaqlara yeni həyat bəxş edib.

**Xəbərlər şöbəsi**

# *“Şahanə”* Mebel İstehsalı Müəssisəsində hər kəsin zövqünü oxşayan mebellər istehsal olunur

***Bazar iqtisadiyyatının əsas tələblərindən biri sağlam sahibkarlıq mühitinin formalaşdırılmasıdır. Bu isə o zaman mümkündür ki, ölkədə sabitlik hökm sürsün, sahibkarların hüquqlarının qorunması üçün işlək hüquqi mexanizmlər yaradılsın, onların zəruri ehtiyaclarının ödənilməsi üçün müvafiq maliyyə mənbələrinə çıxışı təmin olunsun. Məhz buna görə də ölkəmizdə həyata keçirilən dövlət siyasətinin əsas mahiyyətini bazar iqtisadiyyatının yeni trendlər üzərində inkişafını nəzərdə tutan islahatlar təşkil edir.***

Bu islahatların nəticəsidir ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması üçün çoxsaylı tədbirlər həyata keçirilir, sahibkarlara dövlət maliyyə dəstəyi göstərilir, banklar və kredit təşkilatları tərəfindən onlara güzəştli kreditlər verilir. Məqsədyönlü tədbirlərin nəticəsində hər il yeni rəqabətqabiliyyətli müəssisələr həyata vəsiqə alır, bu müəssisələrin hesabına məşğulluq məsələləri öz həllini tapır. “Şahanə” Mebel İstehsalı Müəssisəsi də fəaliyyət göstərdiyi qısa bir dövrdə istehlakçıların rəğbətini qazanıb.



Müəssisə Kəngərli rayonunun Qıvraq qəsəbəsində yerləşir. Sahibkar Əli Cəfərov bu işə əvvəlcə fərdi olaraq yaşadığı həyətdə başlayıb. Qəsəbə və yaxın kəndlərin sakinləri ona tez-tez sifarişlər verdikləri üçün mövcud kiçik sexə əlavə işçi qüvvəsinin cəlb olunmasına və daha sonra isə istehsalat üçün uyğunlaşdırılmış yeni binaya ehtiyac yaranıb. Bu məqsədlə həmsöhbətimiz biznes-plan hazırlayaraq Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fonduna müraciət edib. Onun dediklərindən: “Muxtar respublikamızda sahibkarlığa göstərilən dövlət dəstəyindən biz də yararlandıq. Yeni müəssisə inşa etmək üçün müvafiq orqana müraciət etdik. Bizə Qıvraq qəsəbəsindən keçən Naxçıvan-Sədərək magistral avtomobil yolunun kənarında 2500 kvadratmetr torpaq sahəsi ayrıldı. 2015-ci ilin mart ayında burada inşaat işlərinə başladıq, əraziyə elektrik, qaz və su xətləri çəkildi, transformator yarımstansiyası quraşdırıldı. Müəssisənin burada yerləşməsi bizim üçün xammal və hazır məhsulların ağırtonnajlı yük avtomobilləri ilə daşınması baxımından çox əlverişlidir”.

Əli Cəfərov söhbətinə davam edərək bizi müəssisə ilə yaxından tanış etdi. Bildirdi ki, layihəyə uyğun olaraq, burada istehsal sexi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, sərgi-satış salonu, iaşə xidməti göstərilməsi üçün yeməkxana və digər yardımçı otaqlardan ibarət yeni bina inşa olunub, müasir istilik sistemi qurulub. Müasirtipli layihə əsasında qurulan yeni müəssisə texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl edilməsinə, keyfiyyətli məhsul istehsalına imkan verir. Öyrəndik ki, müəssisədə Türkiyənin “Özkonyalılar” firmasının istehsalı olan avadanlıqlar quraşdırılıb. Mebellərin sifarişçilərin ünvanlarına çatdırılmasının və quraşdırılmasının da müəssisə tərəfindən həyata keçirilməsinə əlverişli şərait yaradılıb, Naxçıvan Avtomobil Zavodunun istehsalı olan yük avtomobili alınıb.

– “Bəs müəssisə üçün xammal haradan gətirilir?” – sualımıza sahibkar cavab verdi ki, əvvəllər bu sahədə xeyli çətinlikləri olub. Belə ki, əvvəllər muxtar respublikamızda fəaliyyət göstərən mebel istehsalı müəssisələrinə hazır materiallar xarici ölkələrdən idxal olunub, bunun üçün əlavə daşınma xərcləri çəkilib. Hazırda isə mebel istehsalı müəssisələrini yüksəkkeyfiyyətli mebel materialları ilə təmin edən “Dekor Qrup” Məhdud Məsuliyyətli Cəmiyyəti həmin problemləri aradan qaldırıb. Artıq müəssisə vaxtında və keyfiyyətli mebel materialları ilə təmin olunur. Oradan alınan fərqli çeşidlərdə materiallar alıcı zövqünü oxşayan müxtəlif mebel nümunələri istehsal etməyə imkan verir. Bunun nəticəsidir ki, indi müştərilər yataq dəstlərindən tutmuş salon, mətbəx, ofis mebellərinədək sifarişlər verirlər. Artıq təkcə Kəngərli rayonundan deyil, Şərur və Sədərək rayonlarından da adıçəkilən müəssisəyə müraciət edirlər.

*Bəli, “Şahanə” Mebel İstehsalı Müəssisəsi daxili bazarın keyfiyyətli məhsullarla təmin olunmasında yeni addımlar atır. Ötən il fəaliyyətə başlayan müəssisədə 5 nəfər işlə təmin olunub. Sərgi-satış salonunda alıcılara təqdim olunan, xüsusi dizaynla bəzədilmiş mebel nümunələri onu deməyə əsas verir ki, yaxın gələcəkdə müəssisənin məhsullarına tələbat daha da artacaq, burada istehsal olunan keyfiyyətli məhsullar hələ çox mənzilləri bəzəyəcək, hər kəsin rahatlığını təmin edəcəkdir.*

**✍ Səbuhi HƏSƏNOV**

# Naxçıvanın böyük turizm potensialı var

## İnfo-tur çərçivəsində Naxçıvana gəlmiş sahibkar və turizmçilər bu fikirdədirlər



***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası qədim tarixi, zəngin mədəniyyəti və əsrarəngiz təbiəti ilə seçilir. Tarixi və mədəniyyət abidələri, gəzməli-görməli yerləri, abadlaşan şəhər və kəndləri Naxçıvanın turizm potensialını daha da artırır. Məhz bu potensialı tanıtmaq məqsədilə "Nəqşicahan Holdinq" tərəfindən aprelin 11-dən 14-dək qədim diyara info-tur təşkil edilib.***

İnfo-tur çərçivəsində Türkiyə, İran, Kipr, Küveyt və Azərbaycanın müxtəlif turizm şirkətlərindən, ümumilikdə, 220 sahibkar və turizmçi Naxçıvana gəlib.

Səfərin birinci günü qonaqlar "Duzdağ" otelində yerli turizm nümayəndələri və iş adamları ilə görüşərək əməkdaşlıq imkanlarını müzakirə edib, Duzdağ Fizioterapiya Mərkəzinin imkanları ilə tanış olublar.

Aprelin 12-də qonaqlar Uzunoba İstirahət Kompleksi ilə tanış olub, dəniz səviyyəsindən 2 min 450 metr yüksəklikdə yerləşən Batabat yaylağını gəzib, ərazidəki göllər, məşhur Üzən ada, Zorbulaq haqqında məlumatlar alıblar. Həmin gün qonaqlar Ağbulaq İstirahət Mərkəzinin turizm imkanlarını da öyrəniblər.

Günün sonuna yaxın sahibkar və turizmçilər muxtar respublikanın dini turizmində mühüm rol oynayan "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi ilə tanış olublar.

Qeyd edək ki, Naxçıvanın mövcud turizm potensialı qonaqlarda böyük maraq oyadıb və onlardan bir neçəsi öz təəssüratlarını "Şərq qapısı" qəzetinin oxucuları ilə bölüşüb.

***Ruslan Quliyev – Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının sədri:*** "Bizim qurumun əsas məqsədi, adından da göründüyü kimi, ölkəmizdə sağlamlıq və termal turizmə dəstəyi özündə əks etdirir. Duzdağ Fizioterapiya Mərkəzi də Naxçıvanın turizm potensialında mühüm əhəmiyyəti ilə seçilən yerlərdən biridir. Hər il bura dünyanın müxtəlif ölkələrindən bronxial-astma xəstəliyindən əziyyət çəkən xeyli insan gəlir. Burada yaradılmış infrastruktur imkan verir ki, bu məqsədlə muxtar respublikaya üz tutan turistlərin sayı daha da çox olsun. Qeyd edim ki, bu ildən başlayaraq biz Pribaltika ölkələrində bu mərkəzin tanıdılması istiqamətində işlərə başlayacağıq. Bundan əlavə, Naxçıvanın hərtərəfli inkişafı, burada həyata keçirilən quruculuq və abadlıq tədbirləri muxtar respublikaya turist axınının artmasına imkan verir. Ümid edirik ki, qarşıdakı illərdə biz bunun şahidi olacağıq".



***Fəriba Mirsefidi – İran İslam Respublikasının "Mişoparvaz Təbriz" turizm şirkətinin menecmenti:*** "Naxçıvanla bağlı təəssüratlarım böyükdür. Hər şeydən əvvəl deyim ki, burada bütün küçələr, yollar çox təmizdir. Müasir dövrdə bunu qoruyub saxlamaq elə də asan deyil. Digər tərəfdən Naxçıvan çox gözəldir. Şəhərdə müasirliklə qədimlik bir-birini tamamlayır. Burada olduğumuz müddətdə Naxçıvanın bir çox gəzməli-görməli yerlərində olduq. Təbiətin qoynunda yer alan Batabat yaylağı, Ağbulaq turistlər üçün əsl istirahət məkanlarıdır. Əshabi-Kəhf ziyarətgahı haqqında isə çox eşitmişdim, amma burada olmamışdım. Çox möhtəşəm bir yerdir. Məlumatım var ki, İran İslam Respublikasından ziyarət üçün bura gələnlər çox olur. Çalışacağıq ki, bundan sonra bizim də bu ziyarətə gələnlərə köməyimiz olsun. Duzdağ Fizioterapiya Mərkəzi isə məni çox təəccübləndirdi. Naxçıvanın hansı tərəfində olduqsa, orada bir füsunkarlıq, gözəllik gördük. İnanıram ki, Naxçıvan bütün bu gözəllikləri ilə qarşıdakı illərdə daha çox turist qəbul edəcək".





***Hanifi Yıldırım – Türkiyə Respublikasının "ASV Lojistik" şirkətinin nümayəndəsi:*** "Qədim Naxçıvan diyarında olmağımdan qürur hissi keçirirəm. Burada 20 il əvvəl olmuşdum, ancaq indi çox dəyişib, yeni binalar tikilib, yollar çox rahatdır. Ötən illərdə Naxçıvan çox sürətlə inkişaf edib, hər şeydən əvvəl sabitlik təmin olunub. Bu da turizmin inkişafı üçün başlıca şərtdir. Təmizliyə isə söz ola bilməz, bu təmizliyi indi bir çox Avropa ölkələrində belə, görmək mümkün deyil. Bu, məni çox sevindirir. Əslən İqdırdanam. Hazırda Ankarada yaşayıram. Mənim ata-babalarım ötən əsrin əvvəllərində Naxçıvandan köçüb Türkiyədə məskunlaşıblar. Buna görə də Naxçıvanı həmişə özümə Vətən saymışam. Naxçıvanla bağlı təəssüratlarım böyükdür. Xüsusilə qeyd etmək istəyirəm ki, burada turizmin inkişafı ilə bağlı böyük işlər görülüb. Öyrəndim ki, Naxçıvanda tarixi abidələrin bərpası və təmiri, yeni turizm obyektlərinin tikintisi diqqətdə saxlanılaraq mühüm layihələr həyata keçirilib. Naxçıvanda kənd yaşayış məntəqələrinin abadlaşdırılması isə məni valeh etdi. Yəni söhbət hər hansı bir kəndə gedən avtomobil yolunun salınmasından deyil, kəndlərin təhsil, səhiyyə, mədəniyyət müəssisələri ilə təmin olunmasından, insanlara rahat yaşamaq və internetə çıxmaq imkanlarının yaradılmasından gedir. Bu mənada, Naxçıvan həm yaşamaq və işləmək, həm də turizmin inkişafı baxımından çox unikal məkandır. Yeri düşmüşkən, Duzdağ Fizioterapiya Mərkəzi məni çox valeh etdi. Bu obyekt sağlamlıq turizmi baxımından Naxçıvana çox fayda verə bilər. Artıq gələcək layihələrimizdə bu mərkəzi Türkiyə vətəndaşlarına daha yaxından tanıtmaq və onları bura yönləndirməklə bağlı əməyimizin olacağını düşünürəm. Ümumilikdə götürsək, Naxçıvan təbiəti, tarixi, mədəniyyəti, müasir inkişafı, turizm potensialı, məişəti və qonaqpərvərliyi ilə xeyli sayda turisti qəbul etmək iddiasında və gücündədir. Bu işin təşkilatçılarına da öz minnətdarlığımı bildirmək istəyirəm ki, Naxçıvanı bu cür müasir və yaraşıqlı görmək fürsətini bizə verdi".



***Emin Ehşeri – İran İslam Respublikasının "Behparvaz" turizm şirkətinin meneceri:*** "Şirkətimiz Təbriz şəhərində fəaliyyət göstərir. Naxçıvana dəvət ediləndə çox sevindim. Doğrusu, ölkələrimiz arasındakı məsafə az olsa da, işlərin çoxluğundan buraya gəlmək arzumu reallaşdıra bilmirdim. Naxçıvanda 1997-ci ildə olmuşdum. O vaxtdan indiyə çox dəyişilib, hətta şəhəri tanımaq olmur. Hara baxırsan, yaraşıqlı binalar tikilib, gözəl parklar, yollar salınıb. İlk növbədə diqqətimi çəkən isə buranın təmizliyi oldu. Bəlkə də, siz çox fərqinə varmırsınız, ancaq kənardan gələnlər bunu o dəqiqə hiss edir. Burada bir çox ünvanlarda olduq. Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olduq, Batabat yaylağını gəzdik, Ağbulağın gözəlliyinə tamaşa etdik, Əshabi-Kəhfi ziyarət etdik. Hər şey mükəmməl və gözəldir. Buna görə də hər il İran İslam Respublikasından xeyli turist gəlir. Naxçıvandan Məşhədə yeni sərnişin qatarının fəaliyyətə başlaması isə hər iki tərəfdən turist axınını gücləndirəcək. Bizi belə bir səfərə dəvət etdiklərinə görə minnətdarlığımı bildirirəm. Çalışacağıq ki, qarşıdakı dövrlərdə iranlı turistlərin Naxçıvana daha çox gəlişini təmin edək".



***İnnara İbrahimova – "Cənnət bağı" turizm şirkətinin nümayəndəsi:*** "Əvvəlcə "Nəqşicahan Holdinq"ə öz minnətdarlığımı bildirirəm ki, yerli və əcnəbi turizm şirkətlərinin nümayəndələrini Naxçıvana dəvət ediblər. Naxçıvan Azərbaycanın ayrılmaz tərkib hissəsi, qədim və zəngin mədəniyyətə malik bir diyarıdır. Müstəqillik illərindən sonra burada görülən işlər, həyata keçirilən quruculuq, abadlıq tədbirləri Naxçıvanın büsbütün dəyişilməsinə, gözəlləşməsinə səbəb olub. Muxtar respublikanın özünəməxsus təbii gözəlliyi və insan zəhməti ilə yaradılmış müasir infrastrukturu bu qədim diyarın gözəlliyini daha da artırır. Yaradılmış şərait Naxçıvanın turizm imkanlarının genişliyini də ortaya qoyur. Buna görə də Naxçıvan bu gün yerli və əcnəbi turistləri yüksək səviyyədə qəbul edəcək potensiala malikdir. İnanıram ki, bura gəlmiş turizm şirkətlərinin nümayəndələri bu imkanları dəyərləndirəcəklər".



Qeyd edək ki, aprelin 14-dək davam edəcək info-tur çərçivəsində qonaqlar Naxçıvanın gəzməli-görməli yerləri ilə tanış olacaq, qarşılıqlı təcrübə mübadiləsi aparılacaq, turizm sahəsi üzrə fəaliyyət göstərən yerli mütəxəssislər üçün ustad dərsləri təşkil ediləcəkdir.

✍ Səbuhi HƏSƏNOV

# Muxtar respublikada yaradılan şərait turizm potensialının təbliğinə geniş imkanlar açır

***Turizmin inkişaf etdirildiyi ölkələrin təcrübəsi göstərir ki, kifayət qədər cazibə gücünə malik olan turizm ehtiyatları zəruri infrastruktur, yetkin kadr təminatı və düzgün təşkil olunmuş təbliğat-tanıtım mexanizmi olduqda öz səmərəsini verə bilər. Naxçıvanın zəngin turizm ehtiyatlarının bir potensial kimi istifadəyə cəlb olunması da bu baxımdan güclü təbliğat-tanıtım işləri tələb edir.***

Turizmdə təbliğat-tanıtım işləri çoxşaxəli və daim üzərində diqqət tələb edən bir məsələdir. Bu, turizmdən yaxşı gəlir əldə edən, ümumi daxili məhsulda turizmə ən çox yer verilən ölkələrdə olduğu kimi, turizm sahəsini daha da inkişaf etdirmək istəyən ölkəmiz, həmçinin muxtar respublikamız üçün də eyni dərəcədə aktualdır. Məsələnin mahiyyəti isə turistlərin artan rekreasiya tələbatı, dünya iqtisadiyyatındakı dəyişikliklər və texnoloji yeniliklərlə birlikdə ortaya çıxan yeni tələblərdir. Başqa sözlə, dünən diyarımıza səyahət etmiş turistlər bu gün keyfiyyətcə yeni bir mənzərə ilə qarşılaşmaq istəyirlər.

Naxçıvan Muxtar Respublikası istər təbii, istər tarixi zənginliyi, istərsə də iqtisadi-mədəni sahədəki nailiyyətləri ilə dünyanın turizm xəritəsində özünəməxsus yer tutur. Naxçıvana bir dəfə səyahət etmiş və bir daha buraya gəlmək istəyən turistlərdə yaranan motivlər yaxın regionda rast gəlinəndən çox fərqlidir. Məsələn, bilirik ki, Naxçıvan tarixi İpək Yolu üzərində yerləşən çox mühüm regiondur. Şübhəsiz, bu dünya şöhrətli ticarət-turizm marşrutu boyunca səyahətə çıxan səyyahlar keçmişdə olduğu kimi indi də vardır. İpək Yolu üzərində hərəkət edən keçmiş səyyahlar kimi müasir turistlərin də əsas diqqəti bu səyahətin, necə deyərlər, ipək kimi yumşaq, yəni rahat olmasıdır. Haşiyə olaraq onu qeyd etmək yerinə düşər ki, bəzən bu marşrutun nəyə görə İpək Yolu adlandırılması diskussiyası olduqda bəziləri bu karvan yolu ilə məhz ipəyin daşındığı qənaətini bildirirlər. Ancaq bir çoxları isə bununla yanaşı olaraq həm də yolun təhlükəsizliyini əsas götürürlər ki, bu da keçmişdə olduğu kimi, indiki səyyahları da düşündürən əsas məsələlərdəndir. Ona görə də Naxçıvana səyahət edən turistlərdən ən yaddaqalan təəssüratlarını soruşduqda onların məhz rahat və təhlükəsiz səyahət edə bildiklərini, xidmət sahələrində səviyyəli xidmət, qonaqpərvərlik və dürüstlük gördüklərini, xalqımızın tolerantlığına heyran qaldıqlarını deyirlər ki, bunlar da tanıtım və təbliğat baxımından çox əhəmiyyətlidir. Göründüyü kimi, turizmin inkişafı üçün göstərilən xidmətlərin özü qədər bu xidmətlər əsasında formalaşan təəssüratlar da mühüm vasitədir.

Biz bu istiqamətlərdə müəyyən nailiyyətlər əldə etmişik. Ancaq gəlin görək vətəndaş olaraq bizim müxtəlif mətbuat və sosial şəbəkələr vasitəsilə Naxçıvanın tanıdılması istiqamətində apardığımız təbliğat qənaətbəxşdirmi? Axı indi 10-15 il bundan əvvəlkindən fərqli olaraq bu sahədə kifayət qədər maddi və elektron resurslar əldə edilib, təcrübə formalaşıb. Əldə olunmuş təcrübə isə onu deməyə əsas verir ki, qloballaşan dünyada gedən reytinq mübarizəsinin mərkəzində turizm sahəsi də artıq öz yerini alıb. Sirr deyil ki, internet resursları turistlərin səyahət yönü seçimində mühüm rol oynayır. Ancaq dünyanın ən geniş informasiya şəbəkəsi olan internetə baxdıqda turizm ehtiyatlarımız, eləcə də turizm infrastrukturu obyektlərimiz haqqındakı informasiyanın yaxın xaricdəki analoqlarla və yaxud həmin yerlər haqqında ingilis dilində olan məlumatların Azərbaycan dilində yerləşdirilmiş məlumatlarla müqayisədə hələ də az olduğunu görürük. Dünya isə inkişaf edir, yeni tələblər ortaya çıxır. Biz isə dünyada bənzəri olmayan abidə və qalalarımızın, təbiət guşələrimizin, xalq sənətkarlığı nümunələrimizin sanki dilə gəlib özünü tanıdacağını gözləyirik. Halbuki təkcə Şərur yallısı ilə Avropanı, dünyanı fəth edəcək, Azərbaycanı tanıdacaq gücümüz vardır. Müasir texnologiya, internet muxtar respublikamızın hər bir sakininə bu sahədə öz vətəndaşlıq borcunu yerinə yetirməyə imkanlar yaradıb. Amma, gəlin görək, bu gün Naxçıvan Muxtar Respublikasının bütün ərazisini əhatə edən Naxtel 4G mobil rabitəsinin istifadəyə verildiyi bir zamanda nə qədər sayda muxtar respublika vətəndaşı sosial şəbəkə hesablarında Naxçıvanın turizm imkanları, qonaqpərvərliyimiz barədə paylaşımlar və ya elektron resurslar yerləşdirir?

Doğrudur, son illər, xüsusən turizmin inkişafı ilə bağlı ötən ilin mart ayındakı müşavirədə qarşıya qoyulmuş vəzifələrlə əlaqədar xeyli işlər görüldüyü göz qabağındadır. Ancaq, görəsən, bu iş təkcə tələbəgənclərin və ya bir qrup yaradıcı şəxslərin vəzifəsidirmi? Bəs digərləri Azərbaycan vətəndaşı, muxtar respublikamızın sakinləri deyillərmi? Reallıqdır ki, cəmiyyətdə nüfuzu olan şəxslərin sosial şəbəkələrdəki təbliğatı muxtar respublikaya səfərə gəlmiş yüksəksəviyyəli bir qonağın müsbət təəssüratları qədər inandırıcı və maraqdoğurandır. Axı adi vətəndaşlardan fərqli olaraq onlar həm də daha geniş auditoriyada söz və nüfuz sahibi olan insanlardır.

Məlumdur ki, bu gün hətta dünyanın bir sıra tanınmış simaları belə, Facebook-un və Twitter-in fəal istifadəçiləridir. Bu, bizə həm də yeni imkanlar yaradır. Ancaq, gəlin görək, muxtar respublikamızda neçə ziyalı, yaxud turizmin tədrisi ilə məşğul olan neçə ali məktəb müəllimi və ya mədəniyyət sahəsində çalışanlardan neçə nəfər sosial şəbəkələrdə muxtar respublikamızı təbliğ edir? Axı Naxçıvana o ay olmaz ki, dünyanın hansısa bir ölkəsindən müxtəlifsəviyyəli qonaqlar, turistlər gəlməsin, gəzib, baxıb, görməsinlər, müxtəlif qurumlarımızda olmasınlar. Məgər onların təəssüratlarını ictimaiyyətə çatdırmaq vəzifəsi təkcə kütləvi informasiya vasitələrinin üzərinə düşür? Bu gün dünya sürətlə dəyişir. Və hər birimiz dövrün yeni tələblərinə cavab verməyə çalışmalı, necə deyərlər, qloballaşma pəncərəsindən baxmağı bacarmalıyıq. Bununla yanaşı, hər birimiz doğma Naxçıvanımızın mövcud turizm potensialını təbliğ etməli, eləcə də bu sahədə həyata keçirilən tədbirlərə dəstək olmalı, töhfəmizi verməliyik.

✍ Əli CABBAROV

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Milli mətbəx nümunələrimiz və onlarla bağlı adət-ənənələrimiz bu gün də yaşadılır

*Zamanın bütün mərhələlərində milli və mənəvi dəyərlərimiz xalqımızın düşüncə sistemində əhəmiyyətli rol oynayıb, hər bir fərdin vətəndaş kimi formalaşmasında ən önəmli meyarlardan biri olub. Milli dəyərlərimizi qorumaq öncə özünü millət kimi dərk edib, uzun illərin sınağından keçərək sintez olunmuş mədəniyyətə sahib çıxmaq, onu müasir tələblər səviyyəsində zənginləşdirmək və nəsildən-nəslə ötürərək yaşatmaqdan ibarətdir. Bu gün cəmiyyətimiz sürətli inkişafdadır. Müxtəlif təsirlərə məruz qalaraq yaşadığımız bir zamanda milli dəyərlərimizi qorumaq böyük vətəndaşlıq məsuliyyəti tələb edir. İndi bu işin öhdəsindən layiqincə gəlib, onu gələcək nəsillərə əmanət etmək hər kəsin üzərinə düşən vacib vəzifələrdəndir.*

Milli və mənəvi dəyərlərimizin qorunması, təbliği, yaşadılması istiqamətində “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzində də məqsədyönlü işlər görülür. Xalqımızın milli dəyərlərinin tərkib hissəsi olan milli mətbəximizin özünəməxsusluğunun təbliği ilə yanaşı, ailələrdə milli mətbəxlə bağlı adət-ənənələrin qorunub saxlanması işinə töhfə vermək mərkəzin fəaliyyət istiqamətlərindən biridir.



Qədim tarixə və zəngin yemək növlərinə malik olan Naxçıvan mətbəxi milli mədəniyyətimizin mühüm tərkib hissəsidir. Ona görə də kulinariya mədəniyyətinin sistemli şəkildə öyrənilməsi və inkişaf etdirilməsi, təbliğ olunması və tanıdılması unudulmaqda olan milli mətbəx nümunələrinin toplanaraq təhlil edilməsindən bilavasitə asılıdır.

Son zamanlar toplanan mətbəx nümunələri içərisində “Şıppır qovurması” adlı yemək növü diqqəti cəlb edir. Şahbuz rayonunda yaşayan Sənəm nənə “Şıppır qovurması”nın hazırlanmasından danışaraq deyir ki, şıppır, əsasən, Batabat, Biçənək, Kükü kəndlərinin Qanlıgöl yaylaqlarında daha çox yayılıb. Bu ərazilərdə şıppır otu may ayının sonlarından iyun ayının sonuna qədər yığılır. Onu yağ-soğanla qovurub üzərinə yumurta vuraraq sarımsaqlı qatıqla süfrəyə verirlər. Onun hazırlanmasında 200 qram cəviz, yarım stəkan düyü, yarım stəkan ləpə, soğan və zövqə görə yarpaq dolmasına vurulan göyərtilər, duz və istiotdan istifadə edilir. İçlik şıppır yarpaqlarına bükülərək bişirilir.

Babək rayonunun Cəhri kəndində Xıdır Nəbinin adı ilə bağlı çeşmə var. Bu kəndin insanları bu gün də “Xıdır Nəbi” mərasimində həmin çeşmədən su götürməyi, o çeşmədə paltar-palaz yumağı adət ediblər. İnanca görə, bu çeşmədən götürülüb evə aparılan su evə ruzi-bərəkət gətirər. “Xıdır Nəbi” mərasimində “kirkirə”, “dəstər” deyilən qədim mətbəx alətində bişmiş buğda üyüdülərək qovut hazırlanır. İnanca görə, o qovutun üzərinə yağ tökərək hərə öz qəlbində bir arzu, bir niyyət tutur. Daha sonra qovut sandığa qoyulur ki, Xıdır Nəbi gəlib həmin sandıqdan öz payını götürsün. Əgər pay götürülərsə, o ailəyə xeyir-bərəkət nəsib olar. Xıdır Nəbi gəlməsə, heç kəs o paya əl vurmaz. Digər inanca görə isə qovutu bir gün teştin içərisində çöldə saxlayarlar. Dan yeri söküləndə Xıdır Nəbi atı ilə gəlib bütün evlərdə qoyulmuş qovutlara xeyir-duasını verərmiş.

Ordubad rayonuna məxsus kömbə çöçə özünəməxsus bişirilmə üsulu ilə diqqəti cəlb edir. Əsasən Ordubad rayonunun Dırnıs kəndinə xas olan bu çöçə ilaxır çərşənbədə hazırlanır. Adət və inanclara görə, kömbə hazırlanarkən rəngli düymələrdən istifadə edilir. İstifadə edilən düymələrin rəngi qırmızı və qara olmalıdır. Bu rənglərin hər birinin öz mənası var. Qırmızı rəng ruzini, qara rəng isə tənbəlliyi simvolizə edir. Kömbə çöçəsi hazırlanarkən düymələr içərisinə yerləşdirilir. Düymələr ailə üzvlərinin sayına görə qoyulmalıdır. Çünki çöçələr bişdikdən sonra onu ailə üzvlərinin sayına görə bölürlər. İnanca görə, çöçələr yeyilən zaman kimin çöçəsindən qırmızı düymə çıxsa, deməli, o, ruzili olacaq, yəni yeni il ona ruzi-bərəkət gətirəcək. Kimə qara düymə çıxarsa, o da tənbəl olacaq.

Ordubad rayonundan topladığımız digər mətbəx nümunələrindən biri də səməni halvasının hazırlanmasıdır. Onun hazırlanması haqqında yaşlı adamlar deyirlər ki, ilaxır çərşənbəsində səməni bişirmək üçün böyük tabaqlara buğda töküb isladarlar. Buğda göyərər, çilləri bir-birinə qarışar. Sonra onu parça-parça doğrayıb əzərlər. Əzdikdən sonra ona bir qədər su axıdıb, ocaqda mis qazanlarda qaynadarlar. Bişənə yaxın bunun rəngi qızarar. Onun içinə qabıqlı cəviz, fındıq tökərlər. Hərə bir xonça düzəldib aparar, “Allah qəbul eləsin!” – deyib həyətə düzərlər. Səməni qazanlarının üstünə qırmızı örtük salarlar, örtüyün üstünə sürmə, güzgü, daraq qoyarlar. Deyərlər ki, Xızır Peyğəmbər gəlib bunlarla özünü bəzəyəcək, sonra da barmağını səməni halvasına batıraraq, bundan sonra halvanın rəngi qızaracaq, özü şirinləşəcək.

**Türkay SƏFƏRZADƏ**
*“Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzinin direktoru*



## “Mən kinonu sevirəm” mövzusunda kinoviktorinanın ilk mərhələsi keçirilib

Aprelin 12-də Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Dövlət Film Fondunun və Naxçıvan Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə “Mən kinonu sevirəm” mövzusunda kinoviktorinaya start verilib.

Kinoviktorinanın 3 mərhələdə keçirilməsi nəzərdə tutulub. I və II mərhələdə 5 komanda, III mərhələdə isə 6 komanda iştirak edəcək. Hər mərhələdə bir komanda qalib gələrək finalda iştirak etmək hüququ qazanacaq. Kinoviktorina iştirakçılarına 10 sual veriləcək. Bu sualların 8-i kino ilə bağlı nəzəri, qalan 2 sual isə nümayiş etdirilən filmlərdən müəyyən epizodlarla bağlı olacaqdır. Hər düzgün cavab 1 balla qiymətləndiriləcək. Ən çox bal toplayan komandalar kinoviktorinanın final mərhələsində iştirak etmək hüququ qazanacaqlar. Final mərhələsi isə aprelin 17-də olacaqdır. Qaliblər diplom və hədiyyələrlə mükafatlandırılacaqdır.

Viktorinanın ilk mərhələsində Naxçıvan şəhərinin 5 tam orta məktəbinin V-VIII sinif şagirdləri iştirak ediblər. Onlara Azərbaycan kinosu ilə bağlı müxtəlif suallar verilib, “Bir qalanın sirri”, “Sehrli xalat”, “Qaraca qız”, “Şərikli çörək”, “Bizim Cəbiş müəllim”, “Dərs”, “Yuxu” filmlərindən müxtəlif epizodlar göstərilib.

Kinoviktorinanın bu mərhələsində Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin komandası qalib olaraq final mərhələsində iştirak etmək hüququ qazanıb.

**Əli RZAYEV**

## “Mömino xatın” kitab-kafesi gənclərin sevimli ünvanıdır



***Mütəxəssislər deyirlər ki, mütaliə insana bir çox faydalı keyfiyyətlər bəxş edir. Kitab oxumaq, ilk növbədə, insanın düşüncə qabiliyyətini inkişaf etdirir, dünyaya, hadisələrə baxış bucağını müəyyənləşdirir, doğru qərarlar verib düzgün seçiminə kömək edir. Oxuduğumuz hər kitabla özümüzə yeni dost qazanmış oluruq. XVIII əsrdə yaşamış Fransa maarifçilərinin görkəmli nümayəndəsi Fransua Volter kitab haqqında yazırdı: “Yaxşı kitabı ilk dəfə oxuyanda bizə elə gəlir ki, yeni dost qazanmışıq. Həmin kitabı təkrar oxumaq köhnə dostu yenidən görməkdir”.***

Bu gün kitabsevərlərin üz tutduqları mütaliə məkanları məhz kitabxanalardır və muxtar respublikanın bütün bölgələrində belə mədəniyyət müəssisələri fəaliyyət göstərir. Son illər həmin kitabxanalar daha da təkmilləşdirilərək müasir tələblərə uyğunlaşdırılıb, kitabxana fondları zənginləşdirilib. İndi bu mütaliə ocaqlarına üz tutan oxucular klassik ədəbiyyat nümunələrindən tutmuş müasir dövrün yazıçılarının əsərlərinə qədər istənilən kitabı tapa bilərlər. Naxçıvan şəhərinin Atatürk küçəsində fəaliyyət göstərən “Mömino xatın” kitab-kafesi də xeyirxah bir missiyanın yerinə yetirilməsi zərurətindən yaradılıb. Kitab-kafe üç il bundan öncə fəaliyyətə başlayıb. Naxçıvan Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Sevinc Abbasovanın təşəbbüsü ilə yaradılan bu müəssisənin əsas məqsədi gənclərimizdə mütaliə mədəniyyətini formalaşdırmaq, gənc nəslə kitabı sevdirməkdir. Kafe özünə xeyli oxucu kütləsi toplaya bilib. 24 oxucu tutumuna malik olan kitab-kafeyə gün ərzində orta hesabla 40-a yaxın oxucu müraciət edir.

Ötən günlərdə biz də yolumuzu adıçəkilən məkana saldıq. Burada yaradılan gözəl şərait bir oxucu kimi bizi də sevindirdi. Kitab-kafedə oxucularla həmsöhbət olduq. Onlardan biri – İnci Məmmədzadə dedi ki, artıq iki ildir, bu kitab-kafenin imkanlarından istifadə edir. Naxçıvanda belə bir kitab-kafenin yaradılmasını təqdirəlayiq hal sayan İnci buradakı şəraitdən razılıqla danışdı.

Sevinc müəllimə bizimlə söhbətində bildirdi ki, bu kafe onun “Oxumağı sevdirək” layihəsi əsasında yaradılıb. Kafe, əsasən, gənclər üçün nəzərdə tutulsa da, hər kəs buraya gəlib heç bir ödəmə etmədən istədiyi kitabdan istifadə edə bilər. Burada olan kitablara gəldikdə isə müsahibimiz qeyd etdi ki, hazırda kafedə tələbə və müəllimlər üçün dərs vəsaitləri, azyaşlı uşaqlar üçün əyləncəli kitablar, müxtəlif dillərdə olan bədii ədəbiyyatlar mövcuddur. Öyrəndik ki, kitab-kafedə oxuculara kitab sifariş etmək hüququ da verilib. Oxumağa gələnlər arasında tələbələr daha çox üstünlük təşkil edirlər. Müsahibimiz onu da bildirdi ki, buraya gələn oxuculara kitab oxuyarkən ucuz qiymətə çay, su, kofe təklif olunur. Söhbət əsnasında o da məlum oldu ki, kitab-kafe açıldığı vaxtdan indiyədək mütaliəyə gəncləri cəlb etmək üçün müxtəlif tədbirlər keçirib. Yerli müəlliflərin kitab təqdimatı, yaradıcı gənclərə aid xüsusi günlərin təşkil olunması, gənclər arasında bilik yarışmalarının keçirilməsi ənənə halını alıb. Sevinc Abbasova sonda bildirdi ki, kitab-kafe gələcəkdə də belə tədbirləri davam etdirəcək, gənclərin maariflənməsi yolunda səylərini əsirgəməyəcək.

**Nail ƏSGƏROV**

***Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının Şərur rayon bölməsinin, rayonun Gənclər və İdman İdarəsinin və Təhsil Şöbəsinin təşkilatçılığı ilə ümumtəhsil məktəbləri şagirdləri arasında “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında ekstremal idman yürüşü üzrə rayon birinciliyi keçirilib.***

## Ekstremal idman yürüşü üzrə Şərur rayon birinciliyinin qalibləri mükafatlandırılıblar



Şərur şəhərindən Cəlilkənddə yerləşən tarixi “Buzxana” abidəsi və Cəlil Məmmədquluzadənin Xatirə muzeyi istiqamətində keçirilən yürüşdə ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərindən ibarət 282 qız və oğlan iştirak edib.

Yürüşdə Düdəngə kənd tam orta məktəbinin şagirdi Aytac İbrahimova, Cəlilkənd tam orta məktəbinin şagirdi Osman Əhmədov I yerə, Zeyvə kənd tam orta məktəbindən Zeynəb Cəfərova, Vasif Əsgərov II yerə, Düdəngə və Mahmudkənd məktəblərinin təmsilçiləri Tamella Məmmədova, Elməddin Tağıyev III yerə layiq görülərək diplom və hədiyyələrlə təltif olunublar.

Sonra şagirdlər tarixi “Buzxana” abidəsinə baxıblar, Mirzə Cəlilin Xatirə muzeyi ilə tanış olublar.

**Mehman MƏMMƏDOV**

## Elan

Naxçıvan Müəllimlər İnstitutunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi” mövzusunda respublika elmi konfransı keçiriləcəkdir.

Konfransda aşağıdakı bölmələr üzrə məruzələr dinləniləcəkdir:

1. Heydər Əliyev və müasir təhsil
2. Yeni pedaqoji texnologiyalarda pedaqogika və psixologiyanın rolu
3. Təhsilin müasir tələbləri və tərbiyə məsələləri
4. Fənlərin tədrisi texnologiyaları.

Konfransda respublikanın ali və orta təhsil müəssisələrinin əməkdaşları məruzələrlə çıxış edə bilərlər.

Tezislər konstruktiv, konkret və konfransın mövzusuna uyğun olmalıdır və 1santimetr intervalla, 14 şriftlə (Times New Roman), formatı – soldan, sağdan, yuxarıdan, aşağıdan 2 santimetr olmaq şərtilə 1-3 səhifə həcmində təqdim olunmalıdır. Müəlliflərin adı, soyadı, elmi dərəcəsi, iş yeri məqalənin adının altında yazılmalıdır.

Konfransın materialları məcmuə şəklində nəşr olunacaqdır.

Məruzələr 1 may 2017-ci il tarixədək Naxçıvan Müəllimlər İnstitutunun elmi hissəsində qəbul olunur.

Konfrans 5 may 2017-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Müəllimlər İnstitutunun akt zalında keçiriləcəkdir.

*Ünvan: Naxçıvan şəhəri,*
*Atatürk küçəsi 31.*
*Naxçıvan Müəllimlər İnstitutu*
*Telefon: (+99036)545-32-02*

**İtmişdir**

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 6, ev 7-də yaşamış Şiraliyev Vilayət Həbib oğlunun adına olan 31 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor müavini: RAUF KƏNGƏRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 295